## NAĞIL

Balaca adamı özündən Böyük adam incidib haqsızlıq etmişdi. Balaca adam göz yaşları axıda-axıda fəryad edirdi.

Xeyirxah adamların Balaca adama rəhmləri gəldi, ona yol göstərib:

- Get, şikayət elə, - dedilər, - bəlkə haqqını qaytardılar.

- Kimə? - deyə Balaca adam fağır-fağır xeyirxah insanlardan soruşdu.

- Əlbəttə, Böyük adamdan daha Böyük adama!

- Böyük adamdan daha Böyük adam kimdir ki? - Balaca adam bu dəfə mağmın-mağmın gözlərini döydü.

Xeyirxah, rəhmli adamlar Balaca adamı başa saldılar ki, Böyük adamın rəisi ondan daha Böyükdür.

Balaca adam xeyli get-gəldən sonra axır ki, Böyük adamdan daha Böyük olan rəisin qəbuluna düşə bildi.

Balaca adam rəisin gen-geniş, işıqlı kabinetində ilk əvvəl çaşqın-çaşqın duruxub qaldı, axır ki, dili topuq vura-vura:

- Mənə məsləhət görüblər ki, Böyük adamdan şikayətimi Siz cənablarına ərz edim, - dedi.

- Niyə məhz mənə? - deyə Rəis hirslə xəbər aldı.

Balaca adam sidq ürəklə:

- Belə deyirlər ki, Siz ondan da Böyük adamsınız.

Balaca adamın sözləri Rəisin canına yağ kimi yayıldı, məmnunluqla:

- Bəs hardan bilirsən ki, mən Böyük adamdan daha Böyük adamam? - deyə müəmmalı şəkildə soruşdu.

Balaca adam dilini ağzında sürüdü:

- Deyirlər ki, istəsəniz onu həbs də edə bilərsiniz.

Böyük adam üz-gözünü turşutdu:

- Hm... Hakimin sanksiyası olmasa, mən həbs qəti-imkan tədbiri seçə bilmərəm...

- Belə çıxır ki, məhkəmə hakimi Sizdən də Böyük adamdır? - Balaca adam şübhəylə soruşdu.

- Elədir ki, var. - Balaca adamın güclü bildiyi Böyük adam kədərli-kədərli mızıldandı.

Balaca adam oradan hakimin yanına yollandı.

Şikayətini edib ədalətli hökm çıxarmasını xahiş etdi.

- Deyirlər ki, möhtərəm hakim, Siz daha Böyük adamsınız... - deyə qətiyyətlə hakimə baxdı.

Hakim başını buladı:

- Ona qalsa, prokuror məndən də Böyük adamdır, - deyə köks ötürdü. -Axı, o protest verib mənim hökmümü ləğv etdirə bilir.

Balaca adam oradan çıxıb prokurora üz tutdu.

- Deyirlər ki, Siz qanun keşikçisiniz, - deyə səsinə rəsmi ton qatmaq istədi.

Eynəkli prokuror Balaca adamın sözünü yarımçıq kəsib:

- Nədir ki, - deyə hövsələsizliklə dilləndi.

Balaca adam dərdini ərzi-hal edib çatdırandan sonra prokuror:

- Şikayət ərizəsi yaz, - deyib onun qarşısına kağız, qələm qoydu.

Balaca adam yazı yaza bilmədiyindən vəkil tutdu, şikayət ərizəsi yazdırdı.

Aradan bir müddət ötəndən sonra Balaca adama izah etdilər ki, ərizəsinin üstünə dərkənar qoyulub. Tezliklə ona cavab veriləcək.

Bu dəfə aradan beş-on gün keçmişdi ki, Balaca adam onu incidib haqqını tapdalayan özündən Böyük adamın yanına çağırıldı. Və Balaca adamdan Böyük adam qəzəblə:

- Ah, yaramaz, - deyə üstünə yeridi, - deməli, məndən şikayətçisən?

Balaca adam gözlərini yerə dikdi. Qəmli-qəmli düşündü ki, gərək elə əvvəldən özündən Böyük adamla dil tapıb barışaydı...

## SİMURQ QUŞUNUN LƏLƏKLƏRİ

Sözü keçən Nadir müəllim hökmlü adam idi. Bu Nadir müəllim həm də cümlə qayğı işə yarayan idi. Yaxın bildiyi, tanıdığı adamlara əl tutmaq, yaxşılıq etmək kişinin şakəri idi. Qohum-qardaşına, həmyerlilərinə, yeddi arxadan dönənlərinə xüsusi zövqlə hazırlanmış vizit vərəqini verər, məxsusi bir əda ilə:

- Məlikməmmədin nağılından xəbəriniz var da, - deyə soruşub nağılı onların yadına salardı.

... Məlikməmməd gördü ki, bir ilan sürünə-sürünə qalxdı ağaca, istədi ki, ağacda yuva qurmuş Simurq quşunun balasını çalsın. Məlikməmməd cəld ilanı vurub öldürdü.

Bir də gördü ki, hava qaraldı. Baxdı ki, Simurq quşudur. Simurq quşu ağacın altında Məlikməmmədi gördü, elə bildi ki, onun balalarını bu vaxtacan öldürən odur. İstədi ki, dimdiyindəki daşı onun başına salıb öldürsün. Balası tez dilləndi ki, amandır, ana, ilanı öldürən bu bəni adamdır.

Simurq quşu da bunun müqabilində borclu qalmadı. Məlikməmmədi qaranlıq dünyadan işıqlı dünyaya çıxardı, ayrılanda da lələklərindən verib dedi ki, dara düşəndə yandırarsan, harda var özümü yetirrəm sənə...

Nadir müəllim nağılını həmişə bu yerdə saxlayar, vizit vərəqini verdiyi şəxsə üzünü tutub:

- Hə, bax, elə bil ki, bu vizit vərəqləri də mənim lələklərimdir, - deyə səsinin tonunu qaldırardı. - Nə vaxt çətinə, dara düşsən burdakı telefon nömrələrindən birinə zəng vura bilərsən...

Ancaq zəng vurub onu narahat etməyə hələ ki, ehtiyac olmamışdı, çünki vizit vərəqinin arxa tərəfində üç-dörd dildə belə bir cümlə də yazılmışdı: "Xahiş edirəm ki, təqdim edənə köməklik göstərəsiniz".

Nadir müəllim təvazökar adam idi. Yoxsa əlində bir belə səlahiyyəti ola-ola lovğanın birisi olsaydı "xahiş edirəm" əvəzinə yəqin ki, belə yazdırardı: "Əmr və yaxud hökm edirəm..."

Bu vizit vərəqini təqdim edənlərdən kimisi bir göz qırpımında vəzifə pillələrində yüksəlmiş, kimisi elmi dərəcə, kimisi orden-medal, fəxri ad almış, kimisi gen-geniş mənzil yiyəsi, kimisi mal-mülk sahibi olmuşdu. Bu vizit vərəqi neçə-neçə bağlı qapıları taybatay açdırmışdı.

Günlərin bir günü vizit vərəqini köməkçilərindən birinə uzadıb Nadir müəllimin qəbuluna düşüb şəxsən özü ilə görüşmək istədim.

Köməkçi vizit vərəqinin o üz-bu üzünə baxa-baxa:

- Gecikmisiniz. - Nadir müəllim elə bu gün səhər-səhər tutduğu vəzifədən kənar edilib... - deyə vizit vərəqini özümə qaytardı.

- Necə? Necə? Necə? - Vizit vərəqi əlimdən yerə düşdü. Kim bilir bəlkə də Nadir müəllim elə bu vizit vərəqlərinin güdazına gedib. Özü deyərdi ki, bu vizit vərəqləri mənim lələklərimdir. Yəqin ki, elə lələkləri yonula-yonula da Simurq quşu qanadsız qalıb. Və qanadları qırıldığından da qalxdığı ucalıqdan düşüb quru yerdə qalıb...

Köməkçi əlimdən yerə düşmüş vizit vərəqinə göz ucu baxıb boğuq-boğuq öskürdü. Elə bil o da ürəyimdən keçənlərdən xəbər tutmuşdu...



■ Aydın Tağıyev

## İSTƏK

Evin sonbeşiyi olan Oğlan qonşularının oğlu ilə həmyaşıd idi. Oğlana bir gün elə gəldi ki, ata-anası onu sevmirlər. Uşaq olsa da, bunu bilməyə nə var idi ki?

Qonşularının oğlu quşlara daş atırdı, pişiklərin quyruğunu dartırdı, ağacların budaqlarını qırırdı.

Bütün bunları isə ata-anası Oğlana qadağan etmişdi.

Oğlan hətta tərli olsa da, soyuq su da içirdi. Ancaq bu qonşu oğlana qadağan idi. O, yalnız qaynadılmış su içə bilərdi.

Qonşu oğlan velosiped istəyəndə ata-anası dərhal tələbinə əməl etmişdilər. Oğlan isə üç gün gözünün yaşını axıtsa da, bir şey çıxmamışdı. Velosiped əvəzinə atası ona qarğıdan bir at düzəltmişdi.

Oğlan heç vaxt qıyıb yalandan ata-anasının canına and içməzdi. Ancaq ata-anasının canı qonşu oğlanınsa heç vecinə deyildi.

Oğlan dərs əlaçısı idi. Qonşu oğlan isə pis oxuyurdu. Ancaq ata-anası onu quruca da olsa məzəmmət etmirdilər, yenə də çox istəyərdilər.

Qonşu oğlanı yemək üstdə ata-anası dilə tutur, yalvar-yaxar edirdilər. Ancaq Oğlan isə evdə tapdıqlarını yeyərdi.

Ancaq ata-anası yenə də Oğlanı az istəyirdi - uşaq olanda nə olar - bu Oğlanın qəti fikri idi!

Qonşu oğlanı isə ata-anası çox, lap çox istəyirdi və iş bunda idi ki, qonşu oğlan isə ata-anasını az, lap az istəyirdi.

Bir gün Oğlan qərara aldı ki, bir bəhanə tapıb o da daha ata-anasını sevməsin, heç istəməsin.

Oğlan fikrə getdi, fikirləşdi ki, ata-anasını az istəmək üçün axtarıb nə bəhanə tapsın?

Bəlkə o da qonşu oğlan kimi quşlara daş atsın, pişiklərin quyruğunu dartsın, ağacların budaqlarını sındırsın... Bunun üstündə ata-anası da ona qulaqburması versin... O da ata - anasından küsüb onları az istəsin.

Bəlkə o da dərslərinə hazırlaşmasın, məktəbdən evlərinə "iki"lərlə qayıtsın. Atası da onu kötəkləsin. Anası da bir qıraqda dayanıb onu atasının əlindən almasın. Və o da hər iksinin əlindən qəzəblənsin. Qəzəb olan yerdə nə sevgi?

Bəlkə o da yalan danışsın və ata-anasının da canına yalandan and içsin. Ata-anası da bunun üstündə onu danlasınlar və o da ata-anası ilə küsülü qalsın, heç barışmasın...

Oğlan ata-anasını az istəmək, belə heç istəməmək üçün elə hey fikirləşirdi.

...Elə bil axtardığını birdən tapdı. Oğlan sevindi. Hə, yaxşısı budur ki, qoy ata-anası da qonşu baba və nənə kimi qocalsınlar. Dişləri tökülsün, gözləri tor görsün, qulaqları da ağır eşitsin. Oğlan da dediyi sözü onlara çatdırmaq üçün dönə-dönə təkrarlayıb qışqırsın... Hirslənib özündən çıxsın...

Oğlan gözlərini bərk - bərk yumub ata-anasının qocalığını gözləri önünə gətirmək istədi. Gözlərini açanda yaş damlaları yanaqları boyu yuvarlandı. Oğlan ağlayırdı...